# XV ƏSR AZƏRBAYCAN TARİXİ: BƏDİİ GERÇƏKLİKLƏR

(əvvəli ötən sayımızda)

**Epopeyadakı hadisələrin əksəriyyəti əski Anadolu torpaqlarında baş vermiş: Sivasda, Toqatda, Ərzurumda…**

İndi bizim üçün köhnəlmiş, tarixizmə çevrilmiş söz və ifadələri T.Kazımov uğurla və yerli-erində işlədir: çapar, müntəzir, hüzur, mürid, düşmən, fındgir, yaraqlı, itaətsizlik, qarət, ox, nizə, süvari, qılınc, qılınclaşmaq, təzim, hökmdar, hüzur, Ağqoyunlu əmirliyi, mühafizəçi (indi mənasını dəyişib), əhv etmək, sülh bağlamaq, zireh…

### II kitab "Qardaşlar: əqidə mübarizəsi" adlanır

***Həmin kitabda Ağqoyunlu hökmdarı Qara Yülük Osman oğlu Əli bəyin oğlanlarından, Cahangir Mirzə və Uzun Həsənin hakimiyyət uğrunda apardığı mübarizədən və Saray Xatunun qardaşlar arasında barış vasitəçiliyindən söhbət gedir. Müxtəlif əqidələr toqquşur, qarşılaşdırılır, kimin haqlı, kimin haqsız olduğu üzə çıxır.***

Bundan sonra yazıçı XV əsr Azərbaycan ictimai-siyasi tarixinə qısa ekskursiya edir. Bu səyahətdə "Türkman" etnik qrupunu, oğuzların Bayandır və Yivə boylarından çıxan Ağqoyunlu, Qaraqoyunlu tayfa əmirliklərinin məhz 15-ci əsrdə törətdikləri olayları bədiiləşdirir. "Bu tayfalar Azərbaycanda bir-birini əvəz edə-edə müstəqil dövlətlərin əsasını qoydular. Tayfa birlikləri arasında qədimdən hər zaman düşmənçilik davam etmiş, XV əsrdə isə daha yüksək siyasi məcraya çatmışdır. Tarixən düşmənçiliyə səbəb əqidə ayrılığı, ərazi ixtilafları və kim-kimə üstün gəlmək uğrunda mübarizə olmuşdur…" Yazıçı tarixi hadisə və faktları oxucuları ilə elə bölüşür ki, sonra onu bütöv biçimdə bədiiləşdirə bilsin. Yarı tarixi, yarı bədii düşüncənin qovuşuğunda çox mürəkkəb proseslər və hadisələr T.Kazımovun istedadı ilə üzə çıxır.

***"Qaçmaq xilas yolu deyil, vəzifəniz düşməni dəf etməkdir" fikri əsərboyu təlqin edilir. Döyüş səhnələri elə təsvir olunur ki, sanki yazçı o döyüşləri öz gözləri ilə görübmüş kimi təsir bağışlayır. Bu döyüşlər ölkədə qayda-qanunun bərpa olunması, əhalinin güzəranının yaxşılaşması və s. üçün vacib idi.***

### III kitab "Həsən Paşa Bayandır" adlanır

Həsən Paşa Bayandır məşhur Azərbaycan sərkərdəsi və dövlət xadimidir. Kitabda onun keçdiyi həyat və mübarizə yolu, dövlətçilik fəaliyyəti bədii-estetik tərzdə əks olunmuşdur.

IV kitab "Azərbaycan-Aqqoyunlu imperiyasının süqutu" məsələlərini əhatə edir. Ağqoyunlu hökmdarı Uzun Həsəndən sonra onun oğlanları Xəlil, Yaqub və Rüstəm arasında saray ixtilafları, imperiyanın süqutu-başa çatması həmin kitabın əsasını təşkil edir. 1503-cü ilə qədər-yəni Səfəvilər dövləti formalaşana qədərki hadisələrin təsviri burada diqqəti çəkir.

Qeyd edk ki, T.Kazımovun bəhs etdiyimiz kitablarında, ilk anda oxucunu "hesablaşmağa" çağıran notlar güclüdür, gözə çarpandır. Kitablarda hadisələrin keçdiyi, baş verdiyi yer, hadisələr içərisində yer alan çoxsaylı tarixi şəxsiyyətlər elə incələnir ki, bu xüsusda dövrün sosial və iqtiqadi şərtləri həqəqətin işığında təsbit edilir, sonra yeni bir cəmiyyətə istiqamətlənən əsas əlamətlər hiss etdirilir. Romanın fikir ağırlığını özündə qoruyub saxlayan tarixilik sağlam sayıla biləcək fikirlərlə zəngindir. Bu da bir gerçəklikdir. Dövrün gerçəkliklərini doğru-düzgün əks etdirdiyi xüsusiyyətlərinə görə biz bu çoxsəpgili romanları bəyənirik. Bu romanların ana cizgiləri, məhz yazıçının tarixizmin qaranlıq qalmış səhifələrinə, eləcə də bədii sözə, dilimizin zəngin ifadə imkanlarına yiyələnmə səviyyəsini də ortaya qoyur. Tarixiliklə yanaşı, dövrün mənbələri, bu mənbələr haqqında yazılmış əsərlər də, həmçinin də dil materialı da üstün xüsusiyyətlərə malikdir.

T.Kazımov əsərdə tarixi hadisələri təsvir edərkən əsas hadisələrlə digər ikinci dərəcəli hadisələri lə əlaqələndirə bilir. Tarixi şəxsiyyətləri və epizodik surətləri yalnız inkişafda verir, onların əsas xarakterik cizgilərini ortaya qoyur və beləliklə də, günümüzün və gələcəyimizin insan talelərinə sanki bir çarə arayır. Romanların təməl dinamizmi ana və yardımçı hadisələrlə bütünləşir və oxucuya təsir edir. Yazıçı əsərdə iştirak edənlərin psixoloji hallarını, durumlarını - yorğunluqları, günah və utanc duyğularını-güclü bir romançı üslubu ilə təhlil etmişdir ki, məhz XV əsrin insanları buna bir nümunədir.

### Bizə elə gəlir ki,

***T.Kazımov oxuculara bu əsərləri ilə tarix dərsi keçmir, bu "dərs"in içində obyekt seçdiyi tarixi dövrü, o dövrün insanları arasındakı münasibətləri meydana çıxarır. Tarixi mövzuları işləmək çətinliyini nəzərə alsaq, T. Kazımov həm öz düşüncəsini, həm də "düşünən özü" hərəkətə gətirmişdir. Tip və xarakterlərdən söz etmək istəsək, Tahirin romanlarında klassik romanın özəlliyinə müvafiq olaraq bir "insan bolluğu" vardır. Qələbəlik eşqi mübarizə aparan əqidə qəhrəmanları, dəfələrlə üzərlərinə düşən vəzifələri yerinə yetirirlər və sonra yenidən həyatın girdablarına, dərinliklərinə, bilinməzliklərinə dönə bilirlər. Belə olan halda obraz və xarakterlər öz hərəkət tərzinə, düşüncə mədəniyyətinə görə bir-birindən fərqlənirlər. Fərqlilik olan yerdə dövrün mənzərəsi güzgüdə olduğu kimi görünür.***

Fərqli çalarlar olmayan yerdə hadisələr, insanların, tarixi şəxsiyyətlərin dramları ya da xarakterlər yaxşı əhəmiyyət kəsb etməz. "Tarixi hadisələri, insanı əsas alaraq yorumlamayan və sürətlər arasındakı əlaqə və münasibətlər üzərində yetərincə durmayan yazıçının məqsədi, qəhrəmanı üç boyutuyla işləmək, dərin ruhsal sözümləmələr etmək deyildir" .

***Tarixi mövzuları işlədiyi romanlarında qəhrəmanların düşüncələrini də nəzərə alaraq geniş bir biliyə, mədəniyyətə, tarixi məlumatlara malik olan Tahir Kazımov qəhrəmanların bəzilərini yerində canlandırarkən bəzilərini də mövzu ilə bağlantılı olaraq tarixdə yaşamış, gerçək-real tiplərdən seçim edə bilmişdir. Ancaq tarixən seçdiyi qəhrəmanların bir hissəsində özündən bir sıra obrazlar da əlavə etmişdir. Bu şərtlə də təsvir olunan zaman tarixi reallıqları azda olsa kölgədə qoymuşdur. Amma o, tarixçi alimlərin əksinə tarixi reallıqlara tamamən bağlı olaraq, təbii bir davranışla ciddi sosial nöqtələrə toxunur və belə bir fikir aşılanır ki, hakimiyyət insana şan-şöhrət deyil, hökmdar öz vəzifəsində şöhrətə sahib olmalıdır.***

Bizə elə gəlir ki, yazıçı təkcə hadisələrin məzmununu verməklə "canını qurtarmır", o eyni zamanda "dilində yaşayır". Dilində yaşayır deyərkən, onu başa düşmək olur ki, zəif dili, üslubu olan bədii əsər demək olar ki, oxunmur. "Dil bədii məzmunun ən mühüm çatdırıcı vasitələrindəndir_ yeganə deyilsə də, ən başlıcasıdır" (Akademik Tofiq Hacıyev)

***Yəni demək istəyirik ki, T.Kazımovun bu kitablarının bədii gücü, enerjisi bir tərəfdən də onun dil və üslubundadır. Yazıçı rəngarəng süjetləri səliqəli, cilalı, lakonik, aydın, nüfuzedcdi məzmunla yüklənmiş bitkin cümlə formaları ilə ifadə edir:***

"Baş əymək bəzən boynunun salamat qalmasıdır. Baş əy, itaət et, müttəfiq ol ki, boynun vurulmasın"; "Qurani-Kərim"ə və dünyaların dəyişmiş ulu babalarımın və digər əzizlərimin ruhuna and içirəm ki, siz əyanların, ali




divan üzvlərinin köməkliyi ilə imperiyanın bütövlüyünü qoruyacaq, rəiyyət arasında güzəran və əmin-amanlıq yaratmağa çalışacağam. Ölkədə birlik, həçmrəylik, əhali arasında narazılıq olmasın deyə Xoy döyüşündə Sultan Xəlilin tərəfindən mənə qarşı döyüşmüş və əsir götürülmüşləri günahsız sayıram" (Sultan Yaqub)

### Yazıçı dövr haqqında

***mövcud qaynaqlara müraciət edir, onun qurduğu "ssenari" reaksiyaları tez qəbul edə bilir. Üslub bitkinliyi formalaşır. Biz bu bitkinliyi əldə etməyi, qazanmağı yazıçının uğuru sayırıq. Oxucu razı qalır ki, T.Kazımov tarixi mövzulu bu kitablarında sözləri israf etmir, o tarixizmlərə bələb olması ilə heç də təşəxxüs satmır, məhz mətləbin tələbi ilə istifadə edir, bununla belə o dövrün çətin anlaşılan ərəb-fars kəlmələri əsərləri dərketməyə əsla mane olmur: zati-alilləri, möhtərəm Ali divan üzvləri (müraciət forması kimi), itaət, mərkəzi hakimiyyət, süvari, sülh məramlı elçilər və s.***

T.Kazımov yaratdığı obrazlar (Sultan Yuqub, Səfəvi şeyxi Şeyx Heydər, Fərrux Yasar, Osmanlı Sultanı II Bəyazid və b.) uğurlu rola girə biliblər, "fikirlərin burulğanında itib-batırlar" Obrazların, tarixi şəxsiyyətlərin dialoqları, mükalimələri, fərdi nitq təzahürləri, real danışığı dövrün danışığına uyğundur, təbiidir, həyatidir, hadisə içərisində yeni hadisələrin verilməsi oxucunu hadisə bolluğundan psixoloji zənginlik sferasına düşürür.

Cəmiyyət və insan gerçəkliyini tarixi və sosial xüsusiyyətlərilə qavrayaraq əks etdirməyə çalışdığını Tahir Kazımovun əsərlərində istifadə olunduğu təkcə fikir tutumu deyil, qeyd etdiyimiz kimi dil də büruzə verir. Yazıçının "dil qayğısı" "məzmun, ideya qayğısından" az rola malik olmur, hər iki "qayğı" oxucuları diqqətli olmağa çağırır.

Bu arada qeyd edək ki, hər bir yazıçının_ Azərbaycan romançısının önündən heç ayırmadığı bir "dil qayğısı" olmalıdır. Burada da irəli, geri ənənəsindən istifadə etməklə, dilin başqa dillərdən büsbütün qopuq, özbaşına bir arqo halına gəlməyəcəyini ağıldan çıxarmamaq; bizi keçmişimizlə bağlı tutacaq əski dillə əlaqəmizi büsbütün qoparmamaq məsələsini yeni romançılar, o cümlədən T.Kazımov diqqətlə göz önündə canlandırmalıdır.

Hadisələrə uyğun atalar sözlərini və məsəlləri işlədir: Səfəvi şeyxi ilə şərt kəsəcəyə, gəmidə oturub gəmiçi ilə dava-dalaş salarsa…(467), sirr dağarçığı (467) və s.

Bu tarixi romanlarda hər təbəqə, hər insan yazıçının özünə roman dili olaraq seçdiyi və məhəlli dil olmaqdan çıxaraq roman üslubuna uyğuladığı Azərbaycan dili ilə danışır.

### Təsvir etdiyi dövrün düşüncə mühitini,

fikir həyatını da incələmək baxımından bu kitablar çox əhəmiyyətlidir. T.Kazımovun bu baxımdan Azərbaycan düşüncə həyatına gətirdiyi ən önəmli yeniliklərdəndir. Uzaq keçmişimizə və yaxın tariximizə yenidən baş vurma ehtiyacı və cəsarəti bizə görə bir qəhrəmanlıqdır.

***Yazıçının vəzifəsi həqiqəti söyləməkdir. Yazıçı həqiqəti elə söyləməlidir ki, yadda qalsın, adamlar onu oxusun və onu konseptual olaraq dərk etsin. T.Kazımov bu 4 kitabı ilə sözün həqiqi mənasında biz oxuculara XV yüzillik Azərbaycan həqiqətlərini bədii təfərrüatlarla çatdıra bilmişdir. Kitablarda təsvir olunan bütün hadisələr, əlbəttə, inandırıcıdır, yadda qalandır və başa düşüləndir.***

Söz yoxdur ki, kitablarda təsvir oluanan insanların, tarixi şəxsiyyətlərin- Qara Yusifin, Qara Osmanın, Sara xatunun və başqalarının öncəki istək və arzuları, işıqlı əməlləri göyərmiş, zaman keçidikcə qalib gəlmişdir. Əsərin isə yeni deyim tərzi ilə, öz fərdi-orijinal üslubu ilə qələmə alınması onun müəllifinin uğurlu işlərindən xəbər verir.

Bu epopeyalar insanı düz yola çəkməyə səsləyir, tarixi babalarımızı, şəxsiyyətlərimizi sevməyə, əqidədə sağlam olmağa, əmin-anmanlığa çağırır, ərazimiz, QRABAĞIMIZ uğrunda mübarəzəyə, düşmənə qarşı birləşməyə, birliyə, insanları ayıq fikirli, düşüncəli, fəhmli, məntiqi hərəkət etmə sövz edir.

Tahir Kazımovun XV əsr tarixi hadisələrindən bəhs olunan kitabları oxucuda hələ bitməmiş, tükənməmiş, arxası gələcəyimiz kimi bir izlenim uyandırır. Yəqin yazıçı bu düşüncə ilə növbəti yüzilliklər (XVI, XVII və s.) haqqında da öz sözünü deyəcək.

Sonda demək istəyirik ki, bu əsəri oxusan, Azərbaycanımızın bir əsrini (XV əsr) haqqında bilik və məlumatın xeyli genişlənər, bir də həyatın dəyişər, əziz oxucu!

***P.S. Bu əsərdən sonra Tahir Kazımovun iki kitabdan ibarət olan "Qönçə və yadplanetlər", fantastik-dedektiv romanı (UniPrint" nəşriyyatı, 2021, 524 s.+ 442 s.) çapdan çıxmışdır. Bu roman gərgin süjetlərlə, müxtəlif insanların uğurlu, uğursuz taleləri, mənfi-müsbət cəhətləri ilə zəngindir. Növbəti yazılarımızda bu haqda söhbət açılacaq, hörmətli oxucular!***

**Möhsün NAĞISOYLU,**
**akademik**
**İsmayıl KAZIMOV,**
**professor**